# QADINLAR DÜNYADA

Bu bölmə qadınların rolu və tələbatları barədə iştirakçıların öz tədqiqatlarından götürülən və qadınlar haqqında əvvəl keçilənləri faktlar və statitstik rəqəmlərlə tamalayan bölmədir. Vacibdir ki, iştirakçılar qender təliminə hazırlıqlı gəlsinlər, qadınların və kişilərin işlədikləri ölkə ya regiondakı həyatından faktlarla silahlanmış olsunlar, ya da ki, təlim tematikdirsə, yəni münaqişələr ya ətraf mühit məsələlərinə toxunursa, bu barədə də məlumatlı olsunlar. Belə hazırlıq, məşğələlərdə əyani misallar gətirməklə, daha dərindən və müfəssəl təhlil predmeti ola bilər. Lazımi məlumatı toplamağa ehtiyac olduqda iştirakçıya materialı hazırlamaq üçün kifayət qədər vaxt ayrılmalıdır. Qadınların guya ağır vəziyyətini göstərən statitstik məlumatların şişirdildiyi barədə təlim zamanı qoyulan suallar, bir qayda olaraq, kişilər tərəfindən verilir. Statistika problemlərini öyrənmək və iştirakçılara yaxın keçmişdə qadın əməyinin və həyatının statistikada ümumi tədqiqat çərçivəsində aparıldığını göstərmək daha məqsədəuyğundur.

## Nə üçün qadınlar statistikada görünməzdirlər?

**Məlumatın əvvəl və sonrakı təsnifatı**

1970-ci ilə qədər tədqiqatların, siyasətin və planlaşdırmanın əsas axını qadınların iqtisadiyyatdakı rolunu faktiki olaraq saymamazlığa qoyurdu. İnkişaf planları və siyasət başlanğıcda müstəsna olaraq yalnız kişilər üzərində qurulurdu, sonradan bu hal bütün adamlara ya gələcək inkişafa şamil edildi, lakin hər halda kişilər «yeganə çörək qazanan, qadınlar və uşaqlar isə onların öhdəsində qalanlar» kimi sayılırdı. Bu siyasət və proqramların çoxunun nəticələri əksər qadınların rifvahının pisləşməsinə və maraqların daha ciddi toqquşmasına gətirib çıxardı.

Üstünlük təşkil edən yanaşma ondan ibarət idi ki, inkişafın gedişində qadınların iştirakı iqtisadi proseslər çərçivəsindən kənarda qalırdı və fəaliyyətin elə növləri ilə məhdudlaşırdı ki, onlar, yaranmış stereotiplərə görə, qadınları ənənəvi cəlb olunduqları ailəyə və uşaqlara qulluq, ev təsərrüfatının aparılması və s. sahələrdə görürdü. Digər tərəfdən praktiki məşğələlər və keyfiyyətli tədqiqatlar göstərir ki, inkişaf edən ölkələrdə qadınların əksəriyyəti iqtisadi və sosial həyatın aktiv iştirakçılarıdırlar, hərçənd ki, onların çoxu iqtisadi artım və inkişafa sanballı töhfə vermək üçün əlverişsiz iqtisadi və sosial vəziyyətdə qoyulublar.

1975-ci ildə BMT-nin bəyan etdiyi Qadın Onilliyinin təqdimatı zamanı iqtisadi və sosial həyatın cinsi əlamətlərə görə milli statistika göstəricilərinin təsnifvatı xüsusi vurğulanmışdı. Məqsəd – planları tərtib edənlərə qadınların iqtisadiyyatda, xüsusən də onun ənənəvi olaraq kişilərə aid edilən sahələrində rolunu, eləcə də gəlir əldə edilməsində, sağlamlıq və təhsil baxımından onların iştirakının vacibliyini göstərmək idi.

Milli statistikanın cinsi bölümə görə təsnifatı heç də bərabər və ardıcıl deyil, buna isə əsas səbəb siyahıya alma və statitstik hesabatlar proseduruna vaxtında və lazımi dəyişikliklərin edilməməsi, tədbirlərin çox ağır və bahalı olmasıdır. Buna baxmayaraq, qadınlar haqqında ümumilli və yerli səviyyələrdə statistik məlumatlar getdikcə tədqiqatçılar və plan tərtibatçıları üçün daha əlçatandır. Hərçənd bu məlumatlar ətrafında çoxlu problemlər qalır. Cinsi əlamətlərə görə təsnifat özlüyündə qadınların həyat və fəaliyyəti haqqında tam təsvir yaratmır. O, yalnız aysberqin zirvəsini göstərir. O, cinsi təsnifat prosesinin kökündə duran iki əsasa görə daha böyükdür. Bunlar aşağıdakılardır:

- Elə qayda ki, məlumatların əldə olunması və qiymətləndirilməsi üçün istifadə olunan bütün texniki üsullar eynilə həm kişilər, həm də qadınlar üçün məqbul olsun. Məsələn, kişilərə aid faktların üzə çıxarılması texnikası qadınlar barəsində də işləməlidir. Lakin sübut olunmuşdur ki, qadınların və kişilərin

iqtisadi və sosial sferada təcrübəsi müxtəlifdir, bu isə onların tutduqları mövqe haqqında cavablara təsir göstərir.

- Elə qayda ki, ənənəvi konseptual kateqoriyalar hamı üçün eyni olsun. Məsələn «iş» konsepsiyası çox vaxt istər kişilər, istərsə də qadınlar üçün eyni məna daşıyır və onların iş təcrübəsinə uyğun olaraq həm də cinsi fərqdən asılı olmayaraq adekvat kateqoriyalarda olduqlarını göstərir. Digər tərəfdən «iş» kateqoriyası qadınlar üçün çox vaxt təsərrüfatda və ailədə ödənilməyən əməyi göstərə bilər, hərçənd ki, bu kişilər üçün sosial görünən və iqtisadi mükafatlandırılan «iş» ola bilər.

**Qiymətləndirmə texnikası**

Statitstiklərin nəyi qiymətləndirdikləri və eynilə nəyi qiymətləndirmədikləri çox halda onların istifadə etdikləri texnikadan asılıdır, tutalım, vahidlərin sadalanmasından, hansı informasiyanın daha üstün, vacib və həqiqətə uyğun olduğunu dərk etməkdən. Məsələn, son tədqiqatların əksəriyyətində siyahıyaalmanın keçirilməsində və Daxili Dövri Məhsulun hesablanmasında istifadə olunan metologiyalar bazardan kənar istehsal dövriyyəsini əks etdirmədikləri üçün ciddi tənqidə məruz qalmışlar. Bu tədqiqatlarda sübut olunurdu ki, qeyri-formal istehsal sektorunun bəzi aspektləri və ailə daxilində istifadə üçün olan istehsal hər iki halda iqtisadi nəzəri-nöqtədən qiyümətləndirilməlidirlər.
Bu cür yanaşma iqtisadi cəhəttən inkişaf edən ölkələr üçün xüsusi əhəmiyyət daşıyır belə ki, onlarda istehsalla bağlı çoxsaylı əməliyyatldar qeydiyyatdan kənarda qalır və ÜDM-in hesablanmasında nəzərə alınmırlar. Bu ölkələrin iqtisadiyyatı elə qurulub ki, milli məhsul hesabatından qeyri-formal və bazardan kənar fəaliyyətin nəticələri, eləcə də bu sektora cəlb olunmuş fəhlə qüvvəsinin həcmi çıxarılsa, ÜDM-in həcmi və tutumu ciddi şəçkildə təhrif olunmuş olur. Bu problemi qadın əməyindən daha çox istifadə edilən yerlərdə üstünlük təşkil edir.
Məlumat bazalarının dəqiqliyinə və əhatə dairəsinə təsir edən bir sıra digər faktlar da mövcuddur. Bu faktlar aşağıdakılardır:

- Sorğunun keçirilmə vaxtının seçilməsi.
- Əhatə olunan dövrün müddəti.
- Sorğunun keçirilmə dili.

Kənd təsərrüfatı statiskisında qadın əməyinin tam əhatə olunmasında və əksini tapmamasındakı bir çox texniki izahların arasında ilin qeyri-mövsümi vaxtının seçilməsi və sorğunun əhatə etdiyi dövrün məhdudluğu qeyd olunur. Empirik tədqiqatlar göstərir ki, lazımınca qiymətləndirməmək, ilk növbədə, sorğu keçirilən dövrdə cari əmək fəaliyyəti, ola bilsin, fermada deyil, ailədə keçən qadınlara aid edilir. Deməli, onlar işləməyən kimi qeyd olunurlar, hərçənd ki, kənd təsərrüfatı dövriyyəsinin həlledici anlarında qadınların əsas fəaliyyəti faktiki olaraq ferma işidir.
Bundan başqa qadınlar və kişilər bir-birindən fərqli hesabat verirlər. Müəyyən edilib ki, qadınlar hesabatı daha səliqəli hazırlayırlar.
İqtisadi fəaliyyət mövsümi dəyişməyə və vaxtaşırı çətinliklərə rast gələn yeganə element deyildir. Dövri dəyişikliklər həm də gəlirə və həyat stanldartlarına, sağlamlıq durumuna, ailə tərkibinə təsir edirlər. Bu sahələrdəki dəyişikliklər, bir qayda olaraq, illik və onillik məlumatlarda görünmürlər, ona görə ki, informasiya ilin yeganə əhatə dövrü əsasında ümumiləşdirilir.

**Konseptual kateqoriyalar**

Əhalinin siyahıya alınmasında və əksər statistik yoxlamalarda konseptual kateqoriyanın seçilməsi «dünyagörüşündən» asılıdır. Axı bu son olaraq kişilərə nisbətən qadınların yeri və rolunun lazımınca qiymətləndirilməməsidir. «Dünyagörüşü» stereotipinin ən yaxşı nümayişini iqtisadi fəaliyyətin təsnifatında istifadə olunan konseptual kateqoriyalar vasitəsilə ifadə etmək olar.

**Məhsuldar fəaliyyət nə deməkdir?**

İqtisadi fəaliyyətin standart konsepsiyası məhsuldar fəaliyyətdə iştiraka əsaslanır. Qadın əməyinin bir çox aspektləri, məsələn, ev əməyi kimi göstərilən ödənişsiz xidmətlər, istehsal fəaliyyəti kimi qəbul olunmur. Axı nəyə görə şəxsi (ailə) istifadəsi üçün ərzaq məhsullarının hazırlanması və emalı elə həmin məhsulların yetişdirilməsindən az məhsuldar sayılmalıdır? Nə üçün uşaqlara qulluq heyvanlara qulluqdan az məhsuldar sayılmalıdır?
Cavab – birdir. Ailə təsərrüfatı  və şəxsi (ailəvi) istehlaka bağlı olan iş, planlaşdırma üzrə iqtisadçılar və mütəxəssislər tərəfindən gəlir gətirməyən və, deməli ki, mahiyyətcə qeyri-iqtisadi sahələr sayılır. Bir halda ki, belə nəticə çıxarılır, deməli, qadın əməyi öz dəyərini itirir və iqtisadi axından xaric edilir.
Bundan əlavə, statistika sahəsindəki konvensiyaların dəyişməz saxlanılması meylləri yaranır ki, bununla qadın əməyinin dəyəri və iqtisadi fəaliyyəti barədə yeni arqumentlər nəzərə alınmasın. Bu istəməzlik digər konseptual maneəni – qender rollarının və qender əmək bölgüsünün cinsi fərqlərlə müəyyən olunduğunun təsdiqini əks etdirir. Məlumat bankları qadınların qender roluna və qender münasibətlərinə stereotip baxışlarla məhdudlaşır və beləcə də uçotlar aparır.

**Bərabərliyə doğru irəliləyiş**

Cinsi əlamətlərə görə təsnifat məlumat bazalarında qender inkişafını təmin etmir. Təsnifat müsbət addım ola bilər, lakin panaseya yox.
Bərabərliyə yönəlmiş qender modeli statistik məlumatların toplanması və təkmilləşdirildməsində yeni yanaşmanı təmsil edir. Bu yanaşma elə yeni konsepsiya və metodların seçiminə əsaslanır ki, onlar vasitəsilə qadınlar haqqında daha dəqiq məlumatlar toplanır, inkişafın planlaşdırılması və siyasətin işlənib hazırlanması prosesində istifadə olunurlar.

Bərabərliyə istiqamətləndirilmiş yanaşmada iki əsas məqam ayrılır:

- Qadınlar və kişilər haqqında informasiyanın kəmiyyət və keyfiyyətindən yalnız onların sosial, iqtisadi və mədəni kontekst əlaqəsində baş çıxarmaq olar.
- Cinsi mənsubiyyətə görə konseptual kateqoriyaların təsnifatı vacibdir, lakin bu qadınların mövqeyi haqqında məlumat bazasının yaxşılaşdırılması üçün kifayət deyildir.

<u>Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar</u>

1. Ölkəmizdə qadınlar – 2-3 saat.
2. Kişilər və qadınlar haqqında faktlar – 40-90 dəq.